# Prezident İlham Əliyev: Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik

## *Dövlət başçısı “Sky News” televiziya kanalına müsahibəsində Azərbaycanın prinsipial mövqeyini bir daha açıqladı*



*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev münaqişə ilə bağlı danışıqların real nəticə ilə yekunlaşmasının vacib olduğunu bir daha vurğulayıb. Dövlət başçısının sözlərinə görə, Azərbaycan problemin danışıqlar vasitəsilə həllinin həmişə tərəfdarı olub, ancaq Ermənistan belə konstruktiv mövqe sergiləməyib. “Yeri gəlmişkən, kimin danışıqların əleyhinə olması ilə bağlı sizə bir söz də deyə bilərəm. Hələ bu müharibə başlamazdan əvvəl Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Minsk qrupunun həmsədrləri ilə görüşmək üçün Cenevrəyə dəvət olunmuşdular. Ermənistanın xarici işlər nazirinin oktyabrın əvvəlində səfər edəcəyi gözlənilirdi, bizim xarici işlər nazirinin oktyabrın 8-də səfər edəcəyi gözlənilirdi. Beləliklə, Ermənistanın xarici işlər naziri buna məhəl qoymadı, getmədi. Bizim xarici işlər naziri dünən Cenevrədə həmsədrlərlə görüş keçirdi”, – deyən ölkə başçısı əlavə edib ki, Azərbaycan Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında görüşün Rusiyada təşkil olunması ilə bağlı Rusiyadan təklif alanda razılaşdı.

Prezident İlham Əliyev Azərbaycanın sülh yolu ilə həll istədiyini bir daha diqqətə çatdırıb: “Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik”.

Dövlət başçımız xarici auditoriyaya da çox mühüm mesaj da ünvanlayıb: “Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır". Bu fikri vurğulamaqla Prezident İlham Əliyev ermənilərin uzun illərdir xarici audidoriyaya sırımağa çalışdıqları “Azərbaycanda ermənifobiya var” hay-küylü ittihamlarının üstündən qara xətt çəkmiş oldu.

Müsahibədə mühüm məqamlardan biri də Dağlıq Qarabağda yaradılmış oyuncaq rejimin təsiri altında yaşayan erməni əsilli insanlar barədə deyilən sözlərdir. Prezident İlham Əliyev Azərbaycanın heç zaman mülki şəxslərə qarşı hücum etmədiyini bir daha elan edib: “Biz heç vaxt mülki şəxslərə hücum etmirik. Bizim Dağlıq Qarabağ ərazisində etdiklərimiz ondan ibarətdir ki, biz onların tanklarını, silahlarını, artilleriya sistemlərini hədəfə almışıq və həmçinin biz onların hərbi infrastrukturunu hədəf almışıq”.

Ölkə başçısı qondarma rejimin hərbi infrastrukturunun bəzən şəhər mərkəzində yerləşdirməsində Azərbaycanın günahı olmadığını bildirib. “Lakin biz heç vaxt qəsdən mülki şəxsləri hədəf almamışıq. Bəli, bizim müasir silahlarımız var, lakin onların heç də hamısı müasir deyil. Bəzi səhvlər ola bilər. Ona görə bizim tərəfdən mülki şəxslərin qəsdən hədəf alınması heç vaxt baş verməmişdir”.

Bununla yanaşı, ölkə başçısı müsahibəsində bildirib ki, təmas xəttinə çox yaxın yerləşən Tərtər şəhəri bombardmana məruz qalır. Xatırladaq ki, ermənilər əks-hücum əməliyyatının başlandığı gündən yorulmadan yalan üyüdürlər ki, guya Azərbaycan mülki obyektləri hədəfə alır. Prezident ermənilərin bu yalanına tutarlı cavab verməklə yanaşı, erməni silahlı qüvvələrinin Azərbaycanın mülki obyektlərinə çoxsaylı zərbə endirdiklərini də açıqlayıb. “Gündə şəhərə 2000 mərmi düşür. Demək olar ki, məhv edilib. Heç kim bunun haqqında danışmır. Ona görə xahiş edirəm ki, gəlin, bu məsələdə ədalətli olaq. Biz bunu başlamamışıq və bizim mülki şəxsləri hədəfə almağa ehtiyacımız yoxdur. Bizə ərazilərimiz lazımdır. Müharibə bitdikdən sonra yanbayan yaşayacağımız mülki şəxsləri niyə görə hədəfə alaq ki? Dağlıq Qarabağdakı erməni əsilli insanlar oradakı kriminal rejiminin girovlarıdır. Əminəm ki, müharibə bitdikdən sonra onlar bizimlə sülh və ləyaqət içində yanbayan yaşayacaqlar".



Bu gün hamıya məlumdur ki, Azərbaycan Ermənistanı bütün cəbhələrdə ağır məğlubiyyətə uğradır. İstər hərbi, istərsə də siyasi-diplomatik müstəvidə düşmən darmadağın edilir. Hazırda Ermənistanın hərbi-siyasi rəhbərliyi çıxılmaz vəziyyətlə üz-üzədir. Döyüş meydanlarında biabırçı məğlubiyyətə uğrayan, həddən artıq hərbi texnika, canlı qüvvə itirən işğalçı ordu mövqelərini durmadan tərk edərək qaçır. Azərbaycan Ordusu güclü əks-hücum əməliyyatları ilə işğal altında olan rayonlarımızı, qəsəbə və kəndlərimizi azad edir. İndi Ermənistan Azərbaycanın şərtlərini qəbul etmək zorundadır. Prezident İlham Əliyev “Sky News” telekanalına müsahibəsində Ermənistanla mümkün danışıqların şərtlərini də açıqlayıb. “Ermənistanın dəstəkləməkdən imtina etdiyi əsas prinsiplərdə torpaqların açıq-aydın necə geri qaytarılacağı göstərilir. Birinci mərhələdə Dağlıq Qarabağın cənub-şərq tərəfində yerləşən beş Azərbaycan rayonu, sonra Dağlıq Qarabağ və Ermənistan arasında yerləşən iki Azərbaycan rayonu qaytarılmalıdır. Sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıdırlar. Dağlıq Qarabağda 25 faiz azərbaycanlı əhali olub, onların da hüquqları təmin edilməlidir. Onlar yaşadıqları yerə – qədim Şuşa şəhərinə və digər yerlərə qayıdırlar və biz normal kommunikasiyaları bərpa edirik. Biz xalqlar arasında təmasları bərpa edirik. Bu, vasitəçilərin planıdır və biz bunu dəstəkləyirik”, – deyə dövlətimizin başçısı bildirib.

Azərbaycanın həmişə danışıqlar prosesini dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev ümid etdiyini bildirib ki, Ermənistan döyüş meydanında bu acı məğlubiyyətlə üzləşəndən sonra daha məntiqli olacaq və vasitəçilərin məsləhətlərinə qulaq asacaqlar, danışıqlar masasında da səmimi olacaqlar. Danışıqlar münaqişənin siyasi həllinə və işğal olunmuş ərazilərin boşaldılmasına gətirib çıxarmalıdır. Ölkə başçısı xarici auditoriyanın diqqətinə bir daha çatdırıb ki, 27 sentyabrdan başlayan əks-hücum əməliyyatları Azərbaycan üçün Vətən müharibəsidir və əsgərlərimiz öz torpağı uğrunda həlak olurlar: “Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərlər hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazilərində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız: onun əsgəri orada nə edir?”.

Qondarma “Dağlıq Qarabağ ordusu”nun 90 faizinin Ermənistan vətəndaşlarından ibarət olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev əlavə edib ki, ermənilər bizim torpağımızdadırlar və bunun üçün xəritəyə baxmaq kifayətdir. “Bizim üçün bu, Vətən müharibəsidir. Biz özümüzü müdafiə edirik. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik ki, bir milyon köçkünün geri qayıtmasına imkan yaradaq. Bizim etdiyimiz budur. Biz 28 il idi səbirlə inanırdıq ki, danışıqlar irəliləyişə gətirib çıxaracaq. Nəticədə hazırkı vəziyyət yarandı”, – deyən ölkə başçısı əlavə edib ki, Azərbaycan təcavüzkarı geri oturdub cəzalandıranda siyasi cəhətdən hücuma məruz qaldı. Prezident İlham Əliyev əsas prinsipləri qəbul etdiyini, Paşinyanın isə rədd etdiyini də bildirib: “Mən Ermənistanla Azərbaycan arasında olan danışıqların formatını qəbul edirəm. Paşinyan isə deyir ki, yox, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, təkcə mənim tərəfimdən deyil, Minsk qrupu tərəfindən də qəbuledilməzdir, – deyən ölkə başçısı bir daha diqqətə çatdırıb ki, hazırda baş verənlərə görə Ermənistan baş nazirini günahlandırmaq lazımdır.

Bir sözlə, Prezident İlham Əliyev “Sky News” televiziya kanalına müsahibəsində böyük dünya güclərinə və Ermənistana havadarlıq edən dövlətlərə, ümumilikdə Qərb auditoriyasına öz prinsipiallığını və qəti mövqeyini bir daha açıqladı, xalqımızın haqlı mübarizə apardığını bildirdi və Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu vurğuladı. Bundan başqa, ölkə başçısı xalqın mənafeyinə əsaslanan, milli maraqlara söykənən mövqeyindən bir addım belə geri çəkilməyəcəyini də dünyaya elan etdi. Hazırda heç kim şübhə etmir ki, münaqişə ilə bağlı uzun illər mövcud olmuş status-kvonun aradan birdəfəlik qaldırılması və Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücumlar Dağlıq Qarabağ probleminin ədalətli həlli yekunlaşacaq.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***